Qlobal tarix dövründə milli hekayətlərə yeni baxış: Məhəmməd Əmin Rəsulzadə və İran əlaqəsi

written by Alireza Hodaei Əlirza Hodaei

XX əsrin başlanğıcı 1905-ci ildə Rusiya, 1906-cı ildə İran Məşrutə və 1908-ci ildə Gənc Türklər inqilabları ilə çarların, şahların və sultanların çoxəsrlik monarxik üsul-idarəsinin kəsilməsi üç qonşu imperiya üçün əhəmiyyətli hadisələrin cərəyan etdiyi dövr oldu. İnqilabi hərəkatlar tezliklə Romanovların, Qacarların və Osmanlıların imperiyalarına son qoyaraq müasir Rusiya, İran və Türkiyə milli dövlətlərinin yaranması prosesini başlatdılar. Coğrafi mövqelərinə, həmçinin hər üç ölkə ilə olan siyasi, dini və linqvistik bağlarına görə Qafqaz müsəlmanları bütün bu hadisələrin ortasında qalmışdı. Bir çox Qafqaz müsəlman ziyalısı bu inqilabi hərəkatlarda aktiv iştirak edir, imperiyaların sərhədlərini yararaq yeni ideyalar önə sürürdülər.

1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə Qacar dövlətindən ilhaq edilən Cənubi Qafqaz Qacar Dövləti, Rusiya İmperiyası və Osmanlı İmperiyası arasında mübahisəli sərhəddə, bufer zonaya çevrildi. Üç əsas dövlət arasındakı sərhəd mövqeləri əksəriyyəti türkdilli olan müsəlman ziyalılarına fars, türk, rus dillərini bilmək, İran, Rusiya, Osmanlı dövlətlərindəki hadisələrlə birbaşa əlaqəyə girmək imkanı verirdi. Qafqaz müsəlmanları Rusiya əhalisinin əhəmiyyətli bir hissəsini təşkil edirdi və onların həm Osmanlı İmperiyası, həm də Qacar dövləti ilə güclü dini və linqvistik bağları vardı. Müxtəlif dillərdə danışan, müxtəlif məzhəbləri olan və Rusiya İmperiyasının hər yerinə yayılan bu müsəlmanlar say baxımından çox idilər. Robert Kreusa görə “Rusiyadakı müsəlmanların sayı Osmanlı sultanının təbəəliyindəki

müsəlmanların ümumi sayından daha çox idi."[1]

Qacar Dövləti ilə coğrafi və mədəni yaxınlığın nəticəsi olaraq bir çox Qafqaz ziyalısı İran Məşrutə İnqilabına qoşulur, qonşu ölkədəki hadisələrlə bağlı narahatlıq keçirirdilər. Üç inqilabda iştirak edən əsas qafqazlı fiqurlardan biri digərlərindən xüsusi ilə fərqlənir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurucularından olan Məhəmməd Əmin Rəsulzadə həm də İranda məşhur inqilabçı və XX əsrin əvvəllərində oradakı Məşrutə İnqilabının vacib fiqurlarından idi. Lakin onun xüsusilə İran siyasətindəki rolunu araşdıran alimlərin sayı heç də çox deyil; yalnız Abrahamianın məşhur *İki İnqilab Arasındakı İran* kitabı kimi bir neçə əsər Rəsulzadənin adını çəkib, onun İrandakı fəaliyyətinə bir neçə paraqraf ayırıb. Fars dilində yazılan əsas tarixi əsərlərdə isə Rəsulzadənin adı belə çəkilmir.

Müasir İranın qurulmasında Rəsulzadə və digər Qafqaz müsəlman ziyalılarının əhəmiyyətli iştirakına rəğmən onların müasir İran tarixindəki rolu onillərdir ki, araşdırılmamış qalır. Türkiyə və Azərbaycanda geniş müzakirə edilən Rəsulzadə niyə İran tarixindən kənarda qoyuldu? Bu laqeydliyə hansı metodoloji qərəzliliklər səbəb oldu və Rəsulzadənin İran əlaqələrinə işıq sala biləcək yeni bir nəzəri baza əgər varsa, nədir? Əlavə olaraq, yeni nəzəri baza çərçivəsində Rəsulzadənin həyatını araşdırmağın hansı faydaları ola bilər və bunun nəticəsində bizim Rəsulzadə və digər Qafqaz müsəlman ziyalıları barədə baxışlarımız necə dəyişə bilər?

Tarixi araşdırmalardakı boşluğu nəzərə alaraq bu məqalə qeyd edilən məsələləri üç hissədə müzakirə etməyə çalışır. Məqalənin ilk hissəsi Rəsulzadə və oxşar fiqurların həyatının öyrənilməsindəki çətinliklərə həsr edilib. İkinci hissə daha çox Rəsulzadə ilə bağlı alternativ və detallı baxış verə biləcək yeni nəzəri, metodoloji töhfələr barədədir. Nəhayət üçüncü hissədə Rəsulzadənin müasir İranın formalaşmasına olan təsiri müzakirə edilir.

1. Gözlənilən çətinliklər

Birdən çox ərazidə fəaliyyət göstərmiş və birdən çox milli hərəkatlara töhfə vermiş ziyalıların həyatını öyrənməkdə bəzi çətinliklər var. Rusiya İmperiyası, Osmanlı İmperiyası və Qacar dövlətindəki hadisələrlə maraqlandıqlarına və bu üç imperiyadakı siyasi hətəkatların formalaşmasına töhfə verdiklərinə görə bir çox Qafqaz müsəlman ziyalısı bu kateqoriyaya düşür. Lakin ingilis, fars dillərində və Azərbaycan türkcəsində mövcud olan ədəbiyyatı oxuduqdan sonra belə bir nəticəyə gəldim ki, müasir İran tarixində təkcə Rəsulzadə yox, Mirzə Ələkbər Sabir və Cəlil Məmmədquluzadə kimi dövrün bir çox ziyalısı da müzakirə edilmir. Bu boşluğun olmasında bir çox səbəbin mövcud olduğunu hesab edirəm: metodoloji millətçilik, dilin milliləşdirilməsi və İranın milli tarixşünaslığı.

a. Metodoloji millətçilik

Bir çox imperiya ərazisində siyasi aktiv olan şəxsləri öyrənməyin əsas çətinliklərindən biri humanitar və sosial elmlərdə *metodoloji millətçilik* adlanan fenomendir. Metodoloji millətçilik milli dövlətləri tarixi analizin təbii vahidi kimi qəbul edən müvafiq konseptual quruluşa deyilir və alimlər arasında geniş yayılmış bir praktikadır. Andreas Vimmer və Nina Qlik Şiller metodoloji millətçiliklə bağlı yazdıqları məqalədə millətçilik və millətçi yazı tərzinin humanitar-sosial elmlərin formasına olan təsirini araşdırıblar. Müəlliflər metodoloji millətçiliyin səbəb olduğu əsas problemləri sadalayırlar: bilik istehsalında millətçiliyin rolunun nəzərə alınmaması, elmi işlərdə milli dövlətlərin təbiiləşdirilməsi və alimlərin fəaliyyətinin ərazi sərhədləri ilə məhdudlaşdırılması.[2] Yuxarıda qeyd edilən bütün problemlər tarix elminə də şamil edilir, lakin tarix yazılmasında metodoloji millətçiliyin ən vacib nəticəsi keçmişin öyrənilməsində milli sərhədlərin ərazi limitləri ilə məhdudlaşdırılmasında müşahidə olunur.

b. Dilin milliləşdirilməsi

Tarixin “milli” dərk edilməsinin digər bir vacib nəticəsi dillərin milli mülk və milli xəzinə olduğunu iddia etməkdir. Dillərə olan bu yanaşma onları milli şüurun özəyini təşkil edən ərazi baxımından məhdud varlıqlara çevirir. Tarix yazılmasında dillərin milliləşdirilməsinin ən çox hiss olunan nəticəsi müxtəlif dillərin “milli” – “qeyri-milli” deyə iki yerə bölünməsi və buna görə də onların tarixi tədqiqatlara daxil, yaxud xaric edilməsidir. Bu fenomenin nümunələrini tez-tez milli dövlətlərdə görə bilərik: türk dilinə Türkiyə tərəfindən iddia edilir, fars dili İranın milli qürur obyektidir, Azərbaycan dili Azərbaycanın milli şüurunun özəyidir.

Lakin bir çox mənbələrin “əcnəbi” və “qeyri-milli” hesab edilərək xaric edilməsinə gətirib çıxardığına görə bu, tarixi perspektivdən baxdıqda mürəkkəb bir problem yaradır. Qeyri-İran elementlərindən biri hesab edildiyi üçün türk dilləri müasir İran tarixinin yazılmasında istifadə edilmir. Qonşu milli dövlətlər də eyni yolu izləyir, nəticədə Azərbaycanla Türkiyənin milli tarixləri fars dilinə və xüsusən də ərəbdilli mənbələrə kifayət qədər birbaşa istinad edilmədən yazılır. Bu yaxınlara qədər bu dillər “xarici” elementlər hesab edilirdilər və onlar “milli dilləri” əcnəbi sözlərdən təmizləyib həmin sözləri daha milli versiyaları ilə əvəz etməklə mükəlləf dövlət qurumları tərəfindən saflaşdırılmalı idi: Türkiyədə *Türk Dil Kurumu*, İranda *Farhangestane* hələ də milli dili qorumaq öhdəliyi olan hökumət tərəfindən dəstəklənən qurumlardır.

Dillərin milliləşdirilməsi bir çox milli hekayətlər arasında qarşıdurmaya səbəb olan ərazilərlə bağlı bir çox yanlış fikirlərin formalaşması ilə nəticələnir. Adətən dillər müəyyən bir əraziyə bağlı olduğundan bu yanlış fikirlər bizim keçmiş haqqında lokal anlayışımız ilə əlaqəli olur. Milli hekayətlərdə dilləri məhdudlaşdırmağın nəticəsində dillərin mürəkkəb sosial və mədəni varlıqlar kimi axıcılığı

dəyişdirilib. Bölgənin tarixçiləri tez-tez bu səhvə düşərək milli davamlılığı milli dil vasitəsi ilə təsvir edir və milli ərazidən kənardakı linqvistik dəyişiklikləri nəzərə almırlar. Buna görə də türk dilində ilk qəzetin 1828-ci ildə Qahirədə, yəni bugünkü Misirdə çıxmış *Vakayi Misriyye*, fars dilində ilk qəzetin 1876-cı ildə İstanbulda, yəni bugünkü Türkiyədə çıxmış *Akhtar* olduğunu və Azərbaycan türkcəsində çıxmış ilk dərslik olan *Vatan Dili*nin isə 1889-cu ildə nə Təbriz, nə də Bakıda, məhz Tiflisdə, yəni bugünkü Gürcüstanda çap edildiyini eşitmək adətən alimləri təəccübləndirir.

c. İranın milli tarixşünaslığı

Metodoloji millətçilik və dilləri milli mülk hesab etməyin nəticələri milli tarixlərə baxdıqda daha da aydın görünür. Milli tarixlər tarix yazılmasında əsas üstünlüyə malik ənənə olub. Milli dövlətin meydana çıxması tarix yazılmasına ciddi təsir göstərdi və millətin keçmişdən bu günə davam etməkdə olan tarixi varlıq kimi təsvir edilməsinə gətirib çıxardı. Tomas Beyker milli tarixşünaslığı "sənədləşdirən və bununla da qarmaqarışıq yaddaşlar, miflər, ənənələr və müəyyən edilmiş faktlardan mədəni, yaxud siyasi olaraq güclü milli kimlik istehsal edən"[3] ənənə adlandırır. Bu mənada İranın milli tarixşünaslığı da istisna deyil. Bu taxişünaslıq iyirminci əsrin ilk onilliklərində milli dövlət və milli kimliyin tarixə proyeksiya edilməsi ideyaları əsasında formalaşıb. Əsas dəyəri fars etnosentrizmi olan İran milli tarixşünaslığı ari irqi ideyasını təbliğ edirdi. Nəticədə İran milli dövlət kimi keçmişdən günümüzə qədər davam edən, mədəni və linqvistik birliyini qoruyan qədim, müqəddəs ərazi kimi təsvir edilirdi. Lakin İran kimi multietnik və multikultural bir ölkənin tarixşünaslığında bu növ diskursun inkişaf etməsi yalnız qeyri-fars tarixlərinin və qeyri-farsdilli tarixi mənbələrin marjinallaşdırılması ilə mümkün ola bilərdi.

İranda sərhədlərarası əlaqənin mövcud olmaması Pəhləvi idarəçiliyi dövründəki İran millətçiliyinin yan təsiridir. Pəhləvi sülaləsi dövründə İran milli tarixşünaslığında yenicə

qurulmuş İran milli dövlətinin qədim varlıq kimi təqdim edilərək sekulyar millətçi narrativlər ilə müdafiə edilməsi üstünlük təşkil edirdi. Buna görə də İran millətinin arxaik, primordial dərk edilməsi İran yaylasındakı bütün sakinləri linqvistik və həmçinin irqi birlik əsasında birləşdirmək uğrunda aparılan davamlı bir mübarizə idi. İranın tarixi əsasən İran yaylasında meydana gəlmiş qədim svilizasiyaların İslam öncəsi kontekstindən müzakirə olunur. *Ari İrqi* nəzəriyyəsi ilə birləşdikdən sonra Pəhləvi tarixşünaslığının mərkəzi nöqtəsinə çevrilən belə sivilizasiyaların məşhur misallarından biri çöllərdən İran yaylasına kütləvi köç etmiş arilərin sonda əsasını qoyduqları əhəmənilər sülaləsidir (e.ə. 550-330).

Lakin Pəhləvi tarixşünaslığı İran tarixini köklü şəkildə formalaşdıran üç əsas elementi kənara atdı və onları "işğalçı" mədəniyyətlər kimi təqdim edib, düşmən mövqeyi tutdu. Bunlardan birincisi İslamın bu əraziyə doğru genişlənməsi; ikincisi, X əsrdən başlayaraq türk tayfalarının bura kütləvi köçü; və üçüncüsü də XIII əsr boyu monqolların İran yaylasına gəlişidir. Belə bir narrativlə əsas əhəmiyyəti İslami fəth, türk xalqlarının köçü və monqol işğalı ilə ortaya çıxmış Azərbaycan İran tarixinin periferiyası kimi müəyyən edildi.

Rza şahın hökmdarlığı dövründə ölkənin rəsmi dili elan olunmuş fars dilindən başqa İranda danışılan bütün əsas dillər geniş şəkildə təzyiqə məruz qalır və həmin dillərdə mətbuat qadağan edilirdi.[4] Əhalinin əksəriyyətinin türk (Azərbaycan) dilində danışdığı Azərbaycanda bu siyasətin dağıdıcı nəticələri oldu. Aşağı və orta sinifdən olan əksər yerli camaat şəhərlərdə və ələlxüsus da kənd yerlərində təhsil infrastrukturunun çatışmazlığından dolayı yeni milli dili öyrənməkdə çətinliklərlə qarşılaşdılar. Fars dilinin dövlət dili kimi məcbur qəbul etdirilməsindən əvvəl Azərbaycanın uzun müddət farsdilli ədəbiyyatın inkişafı üçün əsas mərkəz olmaq ənənəsi vardı. Amma bu o demək deyildi ki hamı fars dilində bilirdi – fars dilinin istifadəsi əsasən bürokratlar, hakim sülalələr və

şairlərlə məhdudlaşırdı. Bölgədəki əhalinin gündəlik danışıq dili Azərbaycan türkcəsi və ya Təbriz, Ərdəbil və Azərbaycanın qalan hissələrində hətta bu gün də adlandırıldığı kimi *türki* olaraq qalmaqda idi.

Radikalcasına homogen millət yaratmaq İrandakı linqvistik müxtəliflik ucbatından Rza şah və onun administrasiyası üçün olduqca çətin idi. Bir çox iranlı rəsmi dil ilə elə də əlaqəsi olmayan dillərdə danışırdılar. Başqa dillərlə bərabər ərəb və türk dilləri İranda geniş yayılmışdı. Həmin dövrdə də, indi də türk dilləri Cənubi İrandakı Qaşqay xalqı, mərkəzi İrandakı Xələc xalqı və Xəzər Dənizinin şərq sahilində Türkmən xalqı tərəfindən danışılırdı. Əsrlər boyu azərbaycanlılar türk (Azərbaycan) dilini gündəlik danışıqda, incəsənətdə və ədəbiyyatda istifadə ediblər. Lakin türk xalqları işğalçı kimi görüldüyündən onların dilləri də fars dili ilə əvəz edilməli idi. Rza şahın administrasiyası İranda türk xalqlarının mövcudluğunu inkar etmək siyasəti seçdi və özünün ayrı-seçkilik siyasətini alternativ narrativlərlə müdafiə etmək yollarını axtarmağa başladı.

İran, Türkiyə, ya da post-Sovet məkanında olmasından asılı olmayaraq Orta Şərq və Mərkəzi Asiyadakı bir çox milli narrativlər bölgədə geniş yayılmış millətçi trendlərdən güclü şəkildə təsirlənmiş arxaik və primordial yanaşmalardır. İranşünaslıq sahəsinə verdiyi böyük töhfələrinə baxmayaraq məşhur İran tarixçisi Mahmud Əfşarın əsərləri belə bir narrativ üçün uyğun bir misaldır. 1927-ci ilin oktyabr ayında *Ayandeh* dövri mətbuatında o, "millət və İranın milli birliyi" haqqında yazdığı məqaləsində Rza şahın idarəçiliyi altında yeni İran milli dövlətinin qarşılaşdığı maneələri müzakirə edirdi.[5] Əfşar iranlı olmağın bir qədər mübahisəli tərifini irəli sürdü: "İranda bizim milli birliyimiz irq (*nejad*), ortaq din, sosial həyat və minilliklər boyu [davam edən] vahid tarixin birliyinə əsaslanır (…) Bu gün biz Iran millətindən danışanda İranda və kənarda yaşayan bütün Iran irqinə məxsus insanları nəzərdə tuturuq. Bu, əlbəttə ki, ermənilər,

yəhudiləri və İranda yaşayan əcnəbiləri əhatə etmir."[6] Əfşarın təklif etdiyi irqi tərif həm o dövrdə, həm də indi İran yaylasının tarixinin yazılmasında qəbul edilən ən əsas tərifdir.

İrandakı milli tarix həmçinin İran tarixini köklü şəkildə formalaşdıran yuxarıda qeyd etdiyimiz üç əsas elementə qarşı da düşmən münasibəti bəsləyir. Rza Zia-İbrahiminin İrandakı millətçi tarixşünaslıqla bağlı məqaləsi[7] erkən XX əsr İran millətçilərinin İrana və fars dilinə vurduqları zərərdən dolayı ərəblərə, türklərə və ələlxüsus da monqollara necə nifrət etdiklərini göstərir. Tarixin belə dərk edilməsi bir çox problemlərlə nəticələnir ki, onlardan biri də "qeyri-sivil türklər"in dilinin oturuşmuş "sivil İran"ın dili olan farsca ilə rəqabət aparmağa qadir olmayan dil kimi qəbul edilməsidir.

Yuxarıda müzakirə edilən məsələlər fonunda Rəsulzadə kimi fiqurlar burada göz qabağına gəlir. Birincisi, əksər yazıları İran üçün əcnəbi dil hesab edilən türk dilində olduğundan İranın bir çox millətçi tarixçiləri onları qəbul etmir. İkincisi, İran siyasətinə verdiyi töhfələrlə yanaşı Rəsulzadə Azərbaycan millətçiliyi və türkçü siyasi düşüncəsinin formalaşmasına da töhfə verib. Bunlar üç fərqli millətçi hərəkatdır ki, bir-birinə qarşı olan siyasi ideyalar kimi formalaşıb və hər biri digərini özünə ciddi təhlükə olaraq görür. Buna görə də Rəsulzadənin sonrakı fəaliyyəti İran millətçilərini heç də sevindirmədi və nəticədə millətçi tarixçilər onu öz tarixi tədqiqatlarına daxil etmədilər. Əlavə olaraq, milli hekayətlərin tarix yazılmasına məcbur tətbiq etdiyi ərazi məhdudiyyəti sərhədlər arası keçidləri, ya da qlobal tarixçilərin təbirincə desək "əlaqəliliyi" nəzərə almır, Rəsulzadə və digər qafqazlıları ümumi mənzərədən kənarda saxlayır.

Hesab edirəm ki, müasir İranın formalaşmasında, xüsusilə Rəsulzadə kimi ziyalılar və qafqaz müsəlmanlarının rolu barədə daha çox şey aşkara çıxarmaq üçün bir-biri ilə rəqabətdə olan

milli hekayətləri aşmaq, həmçinin millətçiliyin özünü sosial fenomen kimi pisləmək və yaxud alçaltmaqdansa, tarixin "milli" dərkin keçmişi başa düşməyimizi necə dəyişdirdiyinə fokuslanmaq lazımdır. Milli narrativləri necə aşa bilərik və Rəsulzadə kimi insanların həyatını daha yaxşı başa düşmək üçün hansı yanaşmalar bizim köməyimizə çata bilər? Məncə, bəzi nəzəri baxışlar bu tədqiqatın önünü açacaq.

2. Milli narrativləri aşmaq; yeni nəzəriyyələr və metodologiyalar

Rəsulzadə kimi mübahisəli ziyalıların həyatının öyrənilməsində bir neçə metodoloji münasibət ilə yanaşı yeni inkişaf etdirilmiş nəzəri baxışların kombinasiyası xüsusilə faydalıdır. "Milli qab"dan yaxa qurtarmaq istəyiriksə, tarix yazılmasındakı yeni məsələlərə baxmalıyıq, çünki onlar adətən milli davamlılığın isbatına hesablanmış milli tarixlərdən ziyadə mübadilələr, keçidlər və əlaqəliliyin üzə çıxarılması ilə maraqlanırlar. Müqayisəli tarix, imperiyaşünaslıq və sərhəd nəzəriyyələri tarix yazılmasında qlobal tarixçilərə milli narrativləri aşmaq imkanı verən yeni yanaşmalar arasındadır.

a. Müqayisəli tarix

Müqayisəli analiz uzun illərdir ki, elmi tədqiqatın qaçılmaz hissəsi olub. Sosial elmlərdə müxtəlif sahələrdən olan alimlər bilərəkdən və ya bilməyərəkdən öz tədqiqatlarında müqayisədən istifadə ediblər. Bu baxımdan tarixçilər də istisna təşkil etmirlər və onlar da oxucuları ilə daha yaxşı əlaqə qura bilmək, öz arqumentlərini çatdırmaq və yazdıqlarını daha izahlı edə bilmək üçün müqayisədən istifadə ediblər. Müqayisə ilə daha intensiv məşğul olan erkən tarixçilərdən birinə misal kimi Mark Bloxu gətirmək olar. *Annales Məktəbi*nin qurucularından biri olan Blox digər sosial elmlərdən müqayisə anlayışını tarixə gətirən ilk tarixçilər arasında olub. Blox ilk olaraq iddia edir ki, tarixi tədqiqatlar üçün müqayisə metodu zəruridir və sonra da müqayisə ilə nəyi nəzərdə

tutduğunu izah edir. Bloxa görə tarixi müqayisə tarixçilərin "bir-biri arasında ilk baxışdan analogiyası olduğunu güman etdikləri bir və ya bir neçə sosial situasiyanı, iki və ya daha çox fenomeni seçməsi, sonra onların təkamül xəttini izləməsi və onları mümkün olduğu qədər izah etməsi" prosesidir.[8] Başqa sözlə desək, müqayisə tarixi hadisələrin izahını asanlaşdıran faydalı bir alətdir.

Tarixin müqayisəli analizi tarixçilərə məlum, bilinən bir hadisəni yadlaşdırmağa və daha yaxşı suallar verməklə tədqiqatlarına yeni baxış bucaqları gətirməyə imkan verir. Mötəbər sosial tarixçi Yurgen Kocka Alman *Sonderweg*[9] ilə bağlı analizində tarixi hadisələrin daha yaxşı dərk edilməsi üçün müqayisənin rolunu vurğulayır. O, *asimmetrik müqayisə* terminindən istifadə edir və onu tarixçilərə bir ölkədəki xüsusi bir tarixi hadisəyə fokuslanmağa imkan verən müqayisəli perspektiv kimi təqdim edir.[10] Əlavə olaraq, Kocka hesab edir ki, "asimmetrik müqayisə adətən müqayisəyə imkan verən yeganə yoldur və başqa cür heç vaxt soruşulmayacaq sualların və verilməyəcək cavabların əldə edilməsinə gətirib çıxara bilər."[11] Bundan başqa tarixdə müqayisədən istifadə etmək tarixçilərin öz tədqiqatlarındakı oxşarlıqları və fərqlilikləri müəyyən etməyi asanlaşdırır. Tarix yazılmasında geniş olaraq müqayisədən istifadə edən sosioloq Çarlz Tilli də düşünür ki, müqayisə müxtəlif baxışlardakı "eynilikləri və fərqlilikləri izləməyə" imkan verir.[12]

Müqayisə *qlobal tarixi*n əsas komponentlərindən biridir. Tarixin qlobal dərk edilməsi mədəniyyətlər arası mübadilənin əhəmiyyətini vurğulayır, avrosentrizmi sorğulayır və milli tarixşünaslığın məhdudiyyətlərini aşır.[13] Müqayisəli perspektiv qlobal tarixçilərin tədqiqatlarında istifadə etdikləri yanaşmalardan biridir. Məşhur qlobal tarixçi Patrik O'Brayen iddia edir ki, müqayisə qlobal tarixin insan tarixi barədə yenidən düşünmək üçün qəbul etdiyi "çoxsaylı metodologiyalar"dan biridir: "humanitar və sosial elmlərdə

universitet, məktəb kurrikulumuna bərpa edilərək daxil edilən çoxlu qlobal tarix əsərlərində müqayisələr və əlaqələr üstünlük təşkil edən metodlardır."[14] Amma heç də bütün qlobal tarixçilər O'Brayen ilə razılaşmırlar. Los Anceles Kaliforniya Universitetinin (UCLA) professoru Sanjay Subrahmanyam *müqayisəli tarixlərdənsə əlaqəli tarix* istifadə etməyi üstün tutur. Qlobal tarixlə məşğul olmaq üçün Subrahmanyam *tarixdə əlaqəlilik* anlayışını vurğulayır və alimləri öz ixtisas sahələrini aşmağa həvəsləndirib, onlara məsləhət görür ki, "ixtisaslaşdığınız çərçivədən kənara çıxın, qeydlərinizi müqayisə edin, hətta tədqiqat planınızı dəyişdirin və skripkalarınızı kökləyin."[15]

Müqayisə metodları ilə birgə bir neçə başqa nəzəri baxışlar da bu tədqiqatı asanlaşdıracaq. Rəsulzadə kimi Qafqaz ziyalılarını öz "milli qab"larından kənara çıxartmaq üçün onların nəyə görə müxtəlif imperiya ərazilərindəki hadisələrlə bu qədər məşğul olmaqlarını izah edə biləcək, həmçinin sərhədlər və imperiyalararası əlaqələrə və keçidlərə işıq sala biləcək yeni nəzəri çərçivələrə ehtiyac var.

Tarix yazılmasında ən yeni və hələ də təkamüldə olan sahələrdən biri imperiyaşünaslıqdır. Millətlərin bir bayraq və bir dil mahiyyətinin əksinə olaraq, imperiyalar hüquqi, sosial, dini və linqvistik baxımdan daha plüral olan siyasi qurumlar idilər. Lakin bu tədqiqat üçün daha uyğun olan şey Qafqaz müsəlmanlarının üç imperiya ərazisində və bu imperiyalardakı üç inqilablardakı aktiv fəaliyyətlərini izah edəcək bazanı formalaşdıran hüquqi plüralizm anlayışıdır.

b. İmperiya əraziləri, hüquqi plüralizm

Mürəkkəb sosial-siyasi qurumlar olaraq imperiyalar son onilliklərdə tarixçilər üçün populyar mövzulara çevriliblər. Bu yeni trenddən bəri tarixçilər imperiyalarla bağlı əhəmiyyətli dərəcədə yeni ədəbiyyat yazıblar və imperiyaların dinamikasını başa düşmək üçün ciddi töhfələr veriblər. Amma imperiyaları öyrənən alimlərin qarşılaşdığı əsas

çətinliklərdən biri imperiyaların hüquqi sistemlərinin çevikliyini və onların bürokratik strukturlarını başa düşməkdir. Bu məqalədə niyyətim ən yeni sərhəd araşdırmalarının bizim imperiyalardakı hüquq və şiddət anlayışımızı necə dəyişdirdiyini müzakirə etməkdir.

İmperiyalar hüquqi plüralizmin olduğu siyasi qurumlar idilər. İmperiyaları sərt hüquqi sistemə sahib siyasi qurumlar kimi qəbul edən klassik görüşə rəğmən sonuncu araşdırmalar imperiyalardakı hüquqi praktikanın çoxluğundan bəhs edir. Lauren Benton özünün olduqca əhəmiyyətli *A Search for Sovereignty; Law and Geography in European Empires, 1400–1900* (*Suverenlik Axtarışı; Avropa İmperiyalarından Hüquq və Coğrafiya, 1400-1900*) kitabında imperiyaların hüquqi landşaftını "dəliklərlə dolu parça" kimi təsvir edir."[16] Benton iddia edir ki, imperiyalar öz ərazilərinin müxtəlif hissələrində hüququn fərqli şərhini tətbiq edirdilər. Əlavə olaraq, imperiyalar həm də asimmetrik və ziddiyyətli dini qanunları özündə cəmləşdirən "çoxyönlü təkamül edən strukturlar" olublar.[17] Mustafa Tunanın Rusiya İmperiyasındakı Volqa-Ural müsəlmanları barədə yazdığı monoqrafiya imperiyadakı hüquqi landşaftın asimmetriyasına yaxşı nümunədir. Pravoslav dövlət kimi Rusiya İmperiyası yerli üləmaları gücləndirməklə və Orenburq Müsəlman Ruhani Məclisini yaratmaqla özünün müsəlman əhalisini siyasi sistemə inteqrasiya etmişdi.[18] Tuna həm də vurğulayır ki, üləmalar dövlət aparatının tərkibinə çevrilən, administrativ və monitorinq sistemlərini yaxşılaşdıran imperiyaboyu təbəələr qismində fəaliyyət göstərirdilər. Kiçik ölçülü administrativ məsələlərdən başqa Rusiya İmperiyası Volqa-Ural bölgəsindəki müsəlman təbəələrinin işlərinə müdaxilə etmirdi və müdaxilə edəndə də bunu yerli üləmalar vasitəsi ilə həyata keçirirdi.[19]

İmperiyaların hüquqi landşaftı həm də məkan və coğrafi baxımdan da müxtəlif idi. Hüquq və coğrafiya arasındakı qarşılıqlı əlaqələr Avropanın müstəmləkəçi dövlətlərini

araşdırarkən daha da əhəmiyyətli olur. Əlavə olaraq, Avropa müstəmləkəçi dövlətlərinin daha da güclənməsi okeanlar, dənizlər, çaylar və eləcə də dağlarda hegomonluq əldə etmək üçün sərhədlər üzərində rəqabət yaratdı. Benton bu coğrafiyaları hüquqi praktikanın imperiyanın digər ərazilərindən fərqli ola biləcəyi "anormal hüquqi zonalar" adlandırır.[20] Öz analizini daha da ətraflı izah edə bilmək üçün Benton imperiyaların digər imperiyalarla rəqabətə girdiyi mübahisəli ərazilər olan okeanlar, dənizlər və çaylardakı suverenlik praktikasına xitabən *hüquqi otarma* terminindən istifadə edir. Buna görə də imperiyalar piratlarla ittifaqlar qurub onları öz maraqlarını artırmaq və "koridor"ları qorumaq üçün dəstəkləyə bilirdilər. Nəticədə bu mürəkkəblik dənizlərdəki suverenlik anlayışını çox kövrək edirdi: "gəmilər çoxsaylı keçidlərdən müxtəlif bayraqlar altında keçir, münasibət qurduqları limanlara, gəmilərə və məhkəmələrə müvafiq olaraq müxtəlif rənglər sərgiləyirdilər."[21] Belə mürəkkəb bir sistem imperiyalardan, beynəlxalq hüququn erkən formaları hesab edilə biləcək gəmiçilik hüquq sistemini idarə etməyi tələb edirdi. İmperiya məkanındakı hüquqi qaydalar iki və daha artıq dövlətin *hüquqi otarma* ilə öz güclərini möhkəmləndirməyə çalışdıqları sərhədlərdə də olduqca oxşar idi.

İmperiyaşünaslıqdakı alimlər tərəfindən irəli sürülən əsas konseptlərdən biri sərhəd anlayışıdır. Sərhəd dedikdə müəyyən bir coğrafiya daxilində iki və ya daha artıq siyasi qurumun üst-üstə düşdüyü məkan nəzərdə tutulur. Sərhəddə siyasi gücü təmin etmək istəyi tez-tez bu coğrafiyaları imperiya mərkəzləri üçün siyasi və sosial legitimlik qazanmaq naminə davamlı mübarizə arenasına çevirir və buna görə də bu sərhəd bölgələrində çoxlu kimliklər yaranıb birlikdə yaşaya bilirlər. Sərhədşünaslıq bu məqalə üçün uyğundur, çünki o, Rəsulzadə və digər qafqazlıların üç imperiya məkanındakı inqilablarda necə və nəyə görə belə aktiv iştirak etdiklərini izah edəcək nəzəri müzakirə təqdim edir.

c. Sərhədşünaslıq, sərhəd xalqları və ziyalıları

Sərhədlərə olan mümkün yanaşmalar arasında Meri Luiz Prattın "mədəniyyətlərin bir-biri ilə görüşdüyü, toqquşduğu və döyüşdüyü sosial məkanlar" kimi təsvir etdiyi "*kontakt zonaları*" nəzəriyyəsi həqiqətən də sərhədlər arasındakı müxtəlifliyi konseptuallaşdırmaq üçün faydalıdır. Lakin onun elastik tərifindən dolayı ağıla belə bir sual gəlir ki, ümumiyyətlə *kontakt zonaya* daxil olmayan haralarsa mövcuddurmu?[22] Müxtəlif xalqlar, mədəniyyətlər və dinlər arasındakı qarşılıqlı əlaqə təkcə imperiyaların kənarlarında və ya uzaq müstəmləkələrdə baş vermir: onlar həmçinin imperiyaların heç də homogen məkanlar olmayan metropollarında və digər mərkəzi bölgələrində də baş verir. Lakin Pratt kolonial kontekstə kimlik formalaşmasının ikitərəfli proses olduğunu iddia etməkdə haqlıdır. Başqa sözlə desək, yerli sakinlər müstəmləkəçi dövlətin mədəniyyətinin bəzi tərəflərini götürsələr də (bu fenomeni Pratt "transkulturasiya" adlandırır), müstəmləkəçi qüvvə də "sivilləşdirməyə" çalışdığı yerli əhali ilə münasibətdə olarkən böyük ölçüdə özünü dərk edir. Prattın Avropa səyahət yazıları ilə bağlı müzakirəsinin də göstərdiyi kimi, periferiyadakı təcrübəsinin mərkəzin özü barədə olan təsəvvürünə ciddi təsiri olur.

Osmanlılar, Qacarlar və ruslar arasındakı sərhəd daima dəyişən və hər üç imperiyanın bir-biri ilə ən çox əlaqədə olduğu coğrafiyadır. Belə böyük və mürəkkəb sərhəd *kontakt zonası* dini müxtəliflikərin və heterodoksluğun olduğu bir bölgədir. *Between Two Worlds: The Construction of the Ottoman State* (*İki Dünya Arasında: Osmanlı Dövlətinin Qurulması*) adlı kitabında Camal Kafadar dini praktikanın və məzhəb müxtəlifliyinin heterodoksluğunu detalları ilə təsvir edir. O hesab edir ki, sərhəd ərazilərdə yaşayan insanlar böyük ölçüdə bir-birinə qarşı tolerant davranırlar: "müsəlmanlar və xristianlar da düşüncələrində, yaxud hərəkətlərində bir-birləri ilə mübarizə içində deyildilər."[23]

Sərhədlər həm də mübahisəli ərazilərdir. İmperiyalar sərhədlərdə öz suverenliklərini təmin etmək üçün qonşularla yarışırlar. Osmanlılar, Qacarlar və Romanovlar arasındakı mübarizə onların sərhəd bölgələrini gərginliyin yüksək olduğu ərazilərə çevirirdi. Markus Dressler bu gərginliyi "əsasən Şərqi Anadoluda siyasi üstünlük uğrunda konflikt" olaraq təsvir edir.[24] Sərhədlərin bu növ təsviri həmçinin *parçalanmış zonalar* tərifinə də uyğun gəlir. Omer Bartov və Erik Veitzə görə *parçalanmış zonalar* imperiyaların paytaxtlarından uzaqda yerləşən mübahisəli ərazilərdir. Burada çoxsaylı kimliklər meydana gəlir və imperiyalar həmin kimlikləri inteqrasiya etməyə çalışırlar.[25] Bu baxımdan istisna təşkil etməyən Osmanlı-Qacar-Romanov sərhədləri də müxtəlif dini və məzhəb kimliklərinin həm öz aralarında, həm də imperiya mərkəzləri ilə münaqişələrinə şahid olurdu.

Sərhəd ziyalıları burada səhnəyə çıxırlar: mobilliyi yüksək, bir neçə dil bilən və müxtəlif imperiyalardakı siyasi proseslərlə tanış olan və buna görə də, müxtəlif imperiyalardakı siyasi hadisələrə cəld reaksiya verə bilən insanlar olurlar. Rəsulzadə kimi sərhəd ziyalıları inqilab və dəyişiklik ideyalarını Qacar dövlətinə gətirən geniş inqilabi ziyalılar şəbəkəsində düyünlər idilər. Məsələn, Heydər Xan Əmioğlu İran Kommunist Partiyasının, Rəsulzadə İran Demokrat Partiyasının qurulmasında iştirak edən əsas şəxslər idilərsə, Mirzə Ələkbər Sabir də müasir İran ədəbiyyatının inkişafında öncül şəxs olub. Tarixşünaslıqdakı yenilikləri və Rəsulzadə kimi ziyalıların həyatını necə oxumaqla bağlı bəzi alternativləri nəzərə almaqla bu məqalənin növbəti hissəsi Rəsulzadənin İranla əlaqəsinə və onun İrandakı fəaliyyətinə işıq sala biləcək bəzi mənbələrə həsr olunub.

3. Rəsulzadə və onun İran siyasəti ilə məşğul olması

İranda təkamül edən siyasi hadisələr və ölkənin gələcəyi siyasi karyerasının erkən dövrlərindən başlayaraq həmişə Rəsulzadənin maraqlandığı məsələlər olub. O, bir neçə il

İranda yaşayıb və Qacar dövründə İrandakı əksər siyasi şəxslər onu tanıyırdılar. Rəsulzadənin İranla əlaqəsi üç xronoloji fraqmentdə müzakirə edilə bilər. Birinci fraqment onun müxbirlik etdiyi və İran Məşrutə İnqilabını izlədiyi 1909-cu ilə qədərki fəaliyyətidir; ikincisi, onun İranda dövrün ən məşhur İran qəzeti olan *Iran-e-Nov* (*Yeni İran*) qəzetinin baş redaktoru vəzifəsində çalışdığı dövrdür; üçüncüsü isə İrandan sürgün edildikdən sonra İran haqqında yazılar nəşr etdirdiyi dövrü əhatə edir.

a. Müxbirlik dövrü: Məşrutə inqilabı

Rəsulzadənin İrandakı hadisələrlə ilk maraqlanması onun gənclik illərində baş verən və sonradan İran Məşrutə İnqilabı kimi tanınan hadisələrin cərəyan etdiyi dövrə təsadüf edir. 1906-ci ildə konstitusiya uğrunda mübarizə başlanandan sonra Rəsulzadə hadisələri yaxından izləyir, Qafqazdakı qəzetlərə İrandakı hadisələrlə bağlı hesabatlar və mövqe yazıları yazırdı. Həyatının bu dönəmində o müxtəlif qəzetlərdə çap etdirdiyi hesabatlar vasitəsi ilə İran siyasətilə məşğul olurdu. İrandakı Məşrutə İnqilabı barədə yazdığı ilk məqalə Bakıda nəşr olunan *İrşad* qəzetində yazdığı *İranda Hürriyyət* adlı məqaləsi idi. Bu uzun məqalədə Rəsulzadə İrandakı konstitusiyaçılara olan rəğbətini gizləyə bilmir, İran tarixinə əhəmiyyətli bir istinad verərək üsyanları və inqilabçıları dəstəkləyir: “Ey iranlı qardaşlarımız!.. sizin məqsudə yetmənizdə hər kəs şəkk edirsə, etsin. Mən özlüyümdə şəkk etmirəm: Sizin əslafınızın tarixi bunu göstərib əlaniyyə diyor ki, zöhkarlar zülmünə[26] düçar olduqda gavələr, əfqanlar talanına giriftar olanda nadirlər olduğu kimi, bu dəfə dəxi istibdad bəlasına aludə varsınızsa da ittihadi-milliyyə, məhsusati-amiyyə sağ olsun!”[27] Rəsulzadənin məqaləsində İran tarixinə verdiyi istinad və İrandakı konstitusiyaçılara olan rəğbəti onun Qacar dövləti və onun sosial-siyasi məsələlərinə münasibətində olduqca əhəmiyyətli bir hadisə idi.

Təbriz, Tehran və Rəştdəki inqilabçıların qalibiyyətləri ilə

bağlı aldığı teleqramlardan həyəcanlanan Rəsulzadə birinci məqaləsindən sonra daha bu hadisələr barədə bir neçə məqalə qələmə aldı. 1906-cı ildə o, İrandakı hadisələrlə bağlı daha dörd məqalə yazıb konstitusiyaçılara açıq dəstək nümayiş etirdi. O həmçinin Qacarları despotluqda, ölkəni bilərəkdən qaranlıqda saxlamaq və kütlələrin inkişafının qarşısını almaqda ittiham edirdi. 1906-cı il iyulun 21-də İranda İnqilab adlı məqaləsində fars dili bilgisini göstərərək məşhur şair Sədi Şirazidən bir şeirlə[28] başlayır, üsyanların gələcəyi barəsindəki narahatlığını və növbəti məqaləsini yazanda artıq İranda konstitusiyanın qəbul edilmiş olmasını görmək istəməsi ilə bağlı ümidlərini dilə gətirir. İranın azadlıq döyüşçülərini salamlayaraq yazır ki: "Neçə vaxt bundan irəli hürriyyət gününün tüluini İran üfüqündən görəcəyin, *İrana hürriyyət* – deyə bir bənd yazdıq. Şükr Allaha ki, İran hürriyyətpərvərləri bizi allatmadılar, indi də *İranda inqilab* – deyə yazmağa səbəb oldular. İnşallah vaxt gələr *İranda qanuni-əsasi* – namində bir bənd yazmağa dəxi müvəffəq olarız. Ürəyimizdə bəslədiyimiz arzu iştə bu (…) Yaşasın İran hürriyyətpərvərləri!"[29]

Rəsulzadənin də ümid etdiyi kimi, bir neçə həftə içində Müzəffərəddin şah konstitusiyanın birinci variantını imzaladı və 1906-cı il 5 avqust fərmanı ilə parlamentin əsasını qoydu. Lakin inqilab əhval-ruhiyyəsi 1907-ci ilin yanvarında Müzəffərəddin şahın ölümü ilə elə də uzun çəkmədi. Ölümündən sonra Qacar sülaləsində növbəti şah olan Məhəmməd əli inqilaba qarşı sərt siyasi xətt seçdi. Bir il içində Məhəmməd əli şah bütün Qacar Dövlətində inqilabı yatırda və özünün despot hakimiyətini qura bildi. 1908-ci il iyunun 20-də şah qoşunlarının Təbrizi nəzarətə götürməyə başlaması ilə inqilabın yatırılması gözlənilirdi. Amma Təbriz mühasirəsi həm şah, həm də müxalifət üçün dönüş nöqtəsi oldu, çünki şəhərin müqaviməti şah qoşunlarının qarşısını aldı. Rəsulzadənin müqavimət hərəkatı ilə birbaşa əlaqəsi də məhz bu dövrdən başlayır.

Bu dövrü öyrənən tədqiqatçı Nəsiman Yaqublu *Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası* adlı kitabında Rəsulzadənin Bakıda yerləşən *Tərəqqi* qəzetinin İrandakı xüsusi müxbiri qismində Rəşt ilə Təbriz şəhərlərindəki fəaliyyətinin detallarını müzakirə edir. Yaqublu iddia edir ki, Rəsulzadə həmin dövrdə şəxsən Təbriz şəhərində olub, inqilabçılara kömək edib və orada müqavimət hərəkatının liderləri ilə əlaqə qurub. *Tərəqqidə* nəşr etdirdiyi xüsusi bir hesabatda Rəsulzadə şəhərin mühasirəsi vaxtı nələrə şahidlik etdiyini belə təsvir edir: "Burada davada olmamış adam çox az tapılır. Qocasından tutmuş uşaqlarına kimi tüfəng alıb müdafiəyə çıxmışlar. Az adam tapılır ki, güllə yeməmiş olsun."[30]

İnqilabçıların Məhəmməd Əli şahın qüvvələri üzərindəki qələbəsindən sonra, 1909-cu ilin yayında qalib inqilabçılar mərhələli şəkildə ölkədə nəzarəti ələ almağa və milli hökumət qurmaq üçün Tehran üzərinə yürüşə başladılar. Yaqublu hesab edir ki, Rəsulzadə Tehrana yürüş edən inqilabçılar arasında olub.[31] Lakin bu qısa dövr ərzində Rəsulzadənin inqilabçı avanqard arasında müxtəlif qüvvələrlə dəqiq nə kimi əlaqəsinin olması tam aydın deyil. Bununla belə 13 iyul 1909-cu ildə Tehran qələbəsindən sonra o, Seyid Həsən Tağızadə kimi ziyalılarla birlikdə olmağa və Demokrat Partiyasının fəaliyyətlərində iştirak etməyə başladı.

İran-e-Nov qəzetinin baş redaktoru və redaktorlar komitəsinin məsləhətçisi olandan sonra Rəsulzadənin Tehrandakı fəaliyyəti sürətləndi. Bu, bir neçə illik jurnalistlik və aktiv siyasi təcrübəsi olan gənc, iyirmi beş yaşlı inqilabçı üçün böyük uğur və vacib şans idi. Özünün məşhur *Iran Between Two Revolutions* (*İran İki İnqilab Arasında*) kitabında Ervand Abrahamian Rəsulzadəni *İran-e-Nov* qəzetinin qurucusu kimi təqdim edib, iddia edir ki, qəzetin məzmununun əksər hissəsi onun tərəfindən yazılırdı. Abrahamian həm də qəzeti Demokrat Partiyasının rəsmi bülleteni və orqanı kimi təqdim edərək, onun böyük oxucu kütləsini, həmçinin İran cəmiyyətinə olan təsirini vurğulayır.[32]

b. İran-e-Nov, Məhəmməd Əmin Rəsulzadənin İrandakı irsi

Rəsulzadənin siyasi həyatını öyrənmək üçün əsas mənbələrdən biri *İran-e-Nov* qəzetidir. Qəzet İran Demokrat Partiyasının rəsmi mətbuat orqanı kimi 1909-cu ildə Tehranda yaradılıb və iki il nəşr edilib. Bu, İranda davamlı olaraq redaktə və çap edilən ilk qəzet idi. 1909-cu ildə İranın bir çox tanınmış şəxslərinin bu qəzetdə yazması onu inqilabçılar arasında əhəmiyyətli qəzetə çevirirdi. Qəzetin direktoru əbülziya Şəbüstəri idi və qəzet erməni tacir Cozef Basil tərəfindən maliyyələşirdi. Rəsulzadə isə İrandan sürgün edilənə qədər qəzetin baş redaktoru oldu. Müasir İranın ideoloji fundamentinin qoyulmasındakı əhəmiyyətli roluna baxmayaraq, *İran-e-Nov* qəzeti Məşrutə İnqilabının tarixinin yazılmasında gözardına vurulan bir mənbədir.

Demokrat Partiyasının və Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olan Rəsulzadə əvvəldən etibarən *İran-e-Nov* qəzetinin baş redaktoru idi və qəzetin doktrinası ilə ideoloji xəttini müəyyən edən məqalələrin əksərini ya özü yazırdı, ya da onun məsləhəti ilə yazılırdı. Rəsulzadənin öz yazıları bir neçə sayda onun təxəllüsü olan *Niş* (*İynə*) adı altında dərc edilirdi. O, Tehranda İran siyasəti ilə məşğul olduğu bir neçə il ərzində qəzetdə bu vəzifəni tutdu. Lakin, onun Qacar dövlətindəki siyasi hadisələrə marağı bir neçə il öncə başlamışdı.

Rəsulzadənin Qacar dövlətinin sosial-siyasi dinamikası və dünya siyasəti ilə maraqlanması qəzetdəki yazılardan məlum olur. Belə ki, o, bu məsələlərlə bağlı bir çox məqalələr yazıb. Amma ən əsası, onun fars dilindəki ədəbi qabiliyyəti də nadir idi. Onun *İran-e-Nov* qəzetində yazdığı ilk məqalə M. Əmin imzası ilə *İspaniya və Mərakeş, Müharibə və İnqilab* adı altında dünya siyasətindən yazdığı uzun bir yazı olub. Bu məqalədə o, ispan qüvvələrinin mərakeşlilər üzərində davam etməkdə olan zorakılığından bəhs edir, haqq qazandırmağın mümkün olmadığı ispan zorakılığını müdafiəsiz xalqa qarşı qeyri-bərabər müharibə kimi tənqid edirdi. Rəsulzadə həmçinin

belə əhəmiyyətli bir qlobal hadisənin iranlılar arasında bilinməməsindən gileylənirdi.[33]

İran-e-Nov qəzetinin ilk buraxılışından sonra Rəsulzadə mütəmadi olaraq (adətən həftədə iki dəfə) dünyadakı hadisələri analiz edən qısa və uzun ölçülü məqalələr yazmağa başladı. Qəzetin növbəti saylarında *Cari Dünya Hadisələri*, *İsveçdə Vəziyyət*, *Məhəmməd əli Şah* və *Turan yoxsa Yuxu* adlı məqalələrində Rəsulzadə bir çox dünya hadisləri və Məşrutə İnqilabının qələbəsindən sonrakı böhranla bağlı yazırdı. Təəccüblüdür ki, bu məqalələrdən sonra Rəsulzadə öz adı ilə heç nə çap etmədi, amma çox güman baş redaktor kimi qəzetə töhfə verməyə davam etdi. Onun adının baş hərflərinin qəzetdən yoxa çıxmasından bir neçə ay sonra Rəsulzadə *Niş* təxəllüsü ilə səhnəyə qayıtdı və 1909-cu ilin sonlarında qəzetin 61-ci sayında iki səhifə yarımlıq məqalə yazdı. 8 noyabr 1909-cu ildə Rəsulzadə *İran-e-Nov* qəzetində iki səhifə yarımlıq məqaləsini "İrandakı vəziyyətin dayaz, aldadıcı şərhi" olduğuna inandığı "Səfvat Bəy"[34] təxəllüslü şəxsin başqa qəzetdə yazdığı məqalənin tənqidinə həsr etdi. Məqalənin uzunluğu və tonu göstərir ki, Səfvat Bəy Rəsulzadəni qəzəbləndirib, çünki Səfvat Bəy şübhələnirdi ki, Demokrat Partiyası Britaniya hökumətinin marionetidir. Hücum etdiyi müəllifin iddialarını rədd edən Rəsulzadə öz partiyasını müdafiə edib özlərinin yerli iranlıların səsi olduqlarını iddia edirdi: "Səfvatın dediklərini rədd etsək də, biz öz yolumuzun tamamilə doğru olduğunu və bizim heç bir problemimizin olmadığını da demirik. Bizim çoxlu problemlərimiz və çatışmazlıqlarımız var, amma ən azından biz daxili işlərimizi yerli nöqteyi-nəzərdən və İran gərçəkliklərindən görürük!"[35]

Bir neçə həftə sonra, Milli Konqresin[36] yenidən açıldığı gün *İran-e-Nov* bu tarixi günü qeyd edən xüsusi buraxılış ilə çıxdı. Rəsulzadə parlamentin əhəmiyyəti barədə uzun bir məqalə yazdı və bu günü "Şərqdə yenidən quruculuq dövrü"nün nişanəsi

kimi vurğuladı. Lakin məqalənin əhəmiyyəti Rəsulzadənin parlament üzvləri üçün beş prioritet müəyyən etdiyi sonuncu paraqraf idi. Bu xüsusilə vacibdir, çünki deputatlar arasında onun öz partiyadaşları da vardı. Rəsulzadəyə görə, yeni parlament maliyyə çətinliklərini aradan qaldırmalı, təşkilatlanmış ordu qurmalı, rus qoşunlarını ölkədən çıxartmalı, mədəni siyasəti yeniləməli və əcnəbi ekspertlər dəvət edərək dövlət bürokratiyasında islahatlar aparmalı idi.[37]


ایران نو

Réduction du journal „Iran nov"
Téhéran (Perse).

افتتاح دار الشورای ملی ایران

تجدد حقیقی وطن عزیز ما

Fiqur 1:İran-e-Nov, 15 noyabr, 1909

İran-e-Nov qəzetinin tanınması, ölkə daxilində və xaricindəki başqa mətbuat orqanları üçün istinad mənbəyinə çevrilməsi ilə Rəsulzadənin İrandakı şöhrəti də növbəti illərdə artmaqda davam etdi. Bu fəaliyyətlər İran daxilində və xaricində bir çox insanı narahat etməyə başladı və nəticədə 1911-ci ilin may ayında o, ölkədən çıxmağa məcbur qaldı. *İran-e-Nov* qəzetində dərc etdiyi sonuncu məqaləsində Rəsulzadə istefa məktubunu yazdı, qəzet direktorundan və oxuculardan üzr istəyib qeyd etdi ki, o jurnalist fəaliyyətinə "ara verməli" və İranı tərk etməli idi.[38] Güman edilir ki, onun istefasının arxasındakı əsas səbəb Rusiya hakimiyyət orqanlarının İran hökuməti üzərindəki təzyiqi olub. Bu, Rəsulzadənin İranda ölkənin ən prestijli qəzetinin baş redaktoru kimi fəaliyyətinin sonu olsa

da, onun İran siyasəti ilə məşğul olmasına son qoymadı.

c. Sürgün illəri, keçmişə yeni nəzər

İranda iki il vaxt keçirmək Rəsulzadəni daha yaxşı jurnalist etdi, ona bir çox məşhur siyasi şəxslərlə münasibətdə olmaq şansı verdi və ən əsası onun İran cəmiyyəti ilə birbaşa əlaqədə olub təcrübə qazanmasına imkan yaratdı. İrandan sürgün edildikdən sonra yazdıqları onun İran barədə şəxsi biliyini əks etdirir. Bu dövrdə o əsasən İran təcrübəsini nəzəriləşdirir və hesabatlardan daha çox uzun və çoxlu mövqe məqalələri yazmağa üstünlük verir. Bu yazıların çoxu *Türk Yurdu* və *Sebilülreşad* adlı Osmanlı jurnallarında iki seriyalı uzun məqalələr şəklində çap edilib və Yadigar Türkel tərəfindən bir kitabça formasında yığılıb. 1911-1912 illər arasında çap edilən bu məqalələrin ilk seriyasında Rəsulzadə İran türklərini qiymətləndirir, sonuncusunda isə Məşrutə İnqilabının qısa tarixini yazır. Hər iki yazının də dəyərli məlumat daşıyan nadir məqalələr olmasına baxmayaraq, onlar müasir İran tarixçiləri tərəfindən araşdırılmayıblar.

Osmanlı mətbuatında dərc edilən məqalələrdən başqa Rəsulzadə təxminən eyni vaxtda İranda çıxan bir kitabçanın da müəllifi olurr. Bu kitabçada Rəsulzadə mötədillərin partiyası olan *Itidaliyyun partiyasının*[39] qurulmasını müzakirə edib onların siyasi mövqeyini və partiya siyasətlərini sərt tənqid edir. Uzun müddət Rəsulzadə keçmiş kolleqalarının əksəriyyəti ilə yaxşı münasibət saxlayır və onların arasında müasir İranın görkəmli şəxsi Seyid Həsən Tağızadə xüsusilə fərqlənir. Tağızadə Təbrizdə doğulmuş inqilabçı idi. Tağızadənin İran daxilində və xaricindəki uzunmüddətli siyasi fəaliyyəti onu müasir İranın formalaşmasındakı qabaqcıl şəxslərdən birinə çevirib. Tağızadə gündəliyində İstanbulda otaq yoldaşı olduqları zaman, həmçinin Berlin və Moskvada görüşdükləri vaxt Rəsulzadə ilə bəzi söhbətlərini qeyd edir. O, Rəsulzadəni "azərbaycanlı peyğəmbər" və "Qandiyə bənzər şəxs" kimi təsvir edib yaxşı münasibətlərinin olduğuna işarə edir.[40]

4. Nəticə

Milli tarixlər demək olar bir əsrdir ki tarixşünaslıq ənənəsində üstünlük təşkil edir. Milli tarixlər milli dövlətləri keçmişin təhlil vahidi kimi götürür və adətən milli davamlılıq proyekti uğrunda mübarizə aparır. Müsəlman dünyasının ziyalıları tez-tez bu mübarizələrin subyektləri olurlar, çünki müxtəlif milli hekayətlər ya onları özününküləşdirir, ya da onları inkar edir. İran, Türkiyə, Azərbaycan tarixləri də bu fenomendən əziyyət çəkir və müxtəlif ərazilərdə fəal olmuş, bu millətlərin formalaşmasına töhfə vermiş bir çox ziyalını bu yanaşmadan çıxış edərək qiymətləndirirlər. Nəticədə bu milli hərəkatlar adətən bir-birinə düşmən olaraq inkişaf etdiklərindən onların formalaşmasına eyni anda eyni cür töhfə verən bir çox ziyalı bir milli kontekstdə alqışlanır, başqa birində isə alçaldılır.

Rəsulzadə öz həyatı və siyasi fəaliyyəti ilə İran, Azərbaycan və Türkiyə millətçiliyinə töhfə verən ziyalılar üçün mükəmməl bir misaldır. Rəsulzadə adətən bir kontektsdə qəhrəman kimi alqışlanırsa, İranın yazılmış müasir tarixində onun adına rast gəlinmir. Bu məqalə Rəsulzadə kimi fiqurların tarix yazılmasındakı yeni yanaşmalar işığında necə müzakirə edilə biləcəyini göstərməyə çalışdı. Məqalənin birinci hissəsi milli tarixşünaslığın əsas problemlərini, yanlışlıqlarını, məhdudiyyətlərini və tarix yazılmasında səbəb olduğu səhvləri müzakirə etdi. İkinci hissə tez-tez qlobal tarixin istehsalı və ya yan təsiri kimi tarixçilərə qarışıq kontekstdə Rəsulzadə tipli ziyalıların həyatı barədə fərqli düşünməyə imkan yaradan yeni nəzəri və metodoloji alternativlərin bəzilərinə toxundu. Nəhayət, üçüncü hissədə bilərəkdən və ya bilməyərəkdən İranın tarix kitablarından kənarda qalan Rəsulzadənin siyasi karyerası boyu yeni İranın formalaşmasına verdiyi bəzi töhfələr müzakirə edildi. Ümidvaram ki, bu məqalə mövcud ədəbiyyata bir töhfə olub əlaqəli mövzularda əlavə tədqiqatlara təkan verəcək.

İstinadlar:

[1] Crews, Robert. “Empire and the Confessional State: Islam and Religious Politics in Nineteenth-Century Russia”, *The American Historical Review* 108, no.1(February 2003):50.

[2] Wimmer, Andreas, and Nina Glick Schiller. “Methodological Nationalism, the Social Sciences, and the Study of Migration: An Essay in Historical Epistemology.” *The International Migration Review* 37, no. 3 (2003): 577-578.

[3] Kramer, Lloyd S, and Sarah C. Maza. *A Companion to Western Historical Thought* (Mass: Blackwell Publishers, 2002),185-187.

[4] Atabaki, Touraj. *Azerbaijan: Ethnicity and the Struggle for Power in Iran*. (London: I.B. Tauris Publishers, 2000), 23-25.

[5] The equivalent in English would be “the future.” Mahmoud Afshar was the director of the periodical.

[6] *Ayandeh*, “ Masaleye melliyat ve vahdate Melliye Iran (Millət məsələsi və İranın milli birliyi).” oktyabr, 1927. Götürülüb: Dr Afshar foundation. m-afshar.net/future/g2/2.doc (daxil olunub 10 fevral 2019). 560

[7] Zia-Ebrahimi, Reza.“Better a warm hug than a cold bath: Nationalist memory and the failures of Iranian historiography”, in *Iranian Studies,* vol. 49, no. 5 (2016): 845.

[8] Bloch, Marc. “A Contribution towards a Comparative History of European Societies”, in *Land and Work in Medieval Europe. Selected Papers*, trans. J. E. Anderson (London 1967), 44-45

[9] *Sonderweg* (“xüsusi yol”) XIX əsrin sonu- XX əsrin əvvəllərində alman tarixçiləri tərəfindən istifadə edilən bir tezisdir və Almaniyanın modernlik yolunun xüsusi olduğu iddiasını müdafiə edir.

[10]Kocka, J. “Asymmetrical Historical Comparison. The Case of the German Sonderweg”, *History and Theory.* 38 (1999), 47.

[11] Kocka, J.. “German Sonderweg”, 49.

[12] Tilly, Charles. *Big Structures, Large Processes, Huge Comparisons*, (New York: Russell Sage Foundation, 1984), 63.

[13] Sachsenmaier, Dominic. “Global History and Critiques of Western Perspectives.” *Comparative Education*. 42 (2006), 451–455.

[14] O’Brien, P. “Historiographical Traditions and Modern Imperatives for the Restoration of Global History”, *Journal of Global History* 1 (2006), 7.

[15] Subrahmanyam, S. “Connected Histories: Notes towards a Reconfiguration of Early Modern Eurasia.” *Modern Asian Studies* 31 (1996), 743.

[16] Benton Lauren. *A Search for Sovereignty: Law and Geography in European Empires, 1400-1900* (Cambridge: Cambridge University, 2009), s. 2.

[17] Tuna, Mustafa. *Imperial Russia’s Muslims: Islam, Empire, and European Modernity, 1788-1914* (Cambridge, 2015), 5.

[18] Orenburq Müsəlman Ruhani Məclisi Rusiya İmperiyasının müsəlman təbəələrinin hüquqi və dini işlərini tənzimləmək məqsədi ilə II Yekaterina tərəfindən yaradılmış dövlətin maliyyələşdirdiyi dini təsisat idi.

[19] Tuna, *op. cit.*, s. 55

[20] Benton, Lauren, *A Search for Sovereignty: Law and Geography in European Empires, 1400-1900*.(Cambridge: Cambridge University, 2009), s. 30.

[21] Ibid. 142

[22] Pratt, Mary Louise. “Criticism in the Contact Zone,” in *Imperial Eyes: Travel Writing and Transculturation (*London: Routledge, 1992), s. 4.

[23] Kafadar, Cemal, *Between Two Worlds: The Construction of the Ottoman State* (Berkeley: University of California Press, 1996), s. 19.

[24] Dressler, M. *Legitimizing the Order—The Ottoman Rhetoric of State Power* (Leiden: Brill, 2005), s. 163.

[25] Bartov, O. and Weitz, Eric. *Shatterzone of Empires: Coexistence and Violence in the German, Habsburg, Russian, and Ottoman Borderlands* (Bloomington: Indiana University Press, 2013), s. 1-4.

[26] Firdovsinin Şahnaməsi ilə Kavek və Zahhak döyüşü nəzərdə tutulur.

[27] *Irshad*, 20 fevral 1906

[28] هر بیشه گمان مبر که خالي است باشد که پلنگ خفته باشد

[29] *Irshad*, 21 iyul 1906

[30] *Tərəqqi*, mart 1909

[31] Yagublu op. cit., s.620

[32] Ervand Abrahamian, *Iran Between Two Revolutions* (Princeton, Princeton University Press, 1982), 103-104.

[33] *Iran-e-Nov*, 24 avqust 1909

[34] Çox güman Məhəmməd əli Səfəvat, Təbrizdə doğulmuş ruhani.

[35] *Iran-e-Nov*, 8 noyabr 1909. Tərcüməçinin qeydi: məqalənin orijinalı fars dilindədir.

[36] دارالشورای ملی

[37] *Iran-e-Nov*, 15 noyabr 1909

[38] *Iran-e-Nov*, 25 may 1909

[39] تنقید فرقه اعتدالیون و یا اجتماعیون- اعتدالیون

[40] Seyyed Hasan Tagizadeh,*The Stormy Life [Zendegiye Toofani]*(Tehran: Ferdows,2000),378-381.

ədəbiyyat siyahısı:

a. İlkin mənbələr

1. İrşad qəzeti
2. Tərəqqi qəzeti
3. Iran-e-Nov qəzeti

b. İkinci mənbələr

1. Abrahamian, Ervand. *Iran Between Two Revolutions.* Princeton, Princeton University Press, 1982.
2. Atabaki, Touraj. *Azerbaijan: Ethnicity and the Struggle for Power in Iran*. London: I. B. Tauris Publishers, 2000.

3. Bartov, O. (ed.) and Eric Weitz (ed.). *Shatterzone of Empires: Coexistence and Violence in the German, Habsburg, Russian, and Ottoman Borderlands*. Bloomington: Indiana University Press, 2013.

4. Benton, Lauren. *A Search for Sovereignty: Law and Geography in European Empires, 1400*-1900. Cambridge: Cambridge University, 2009.

5. Bloch, Marc. "A Contribution towards a Comparative History of European Societies", in *Land and Work in Medieval Europe. Selected Papers*, trans. J. E. Anderson. London: 1967.
6. Crews, Robert. "Empire and the Confessional State: Islam and Religious Politics in Nineteenth- Century Russia." *The American Historical Review* 108, no.1 (2003): p. 50-83.

7. Dressler, M. *Legitimizing the Order—The Ottoman Rhetoric of State* Leiden: Brill, 2005.
8. Kafadar, Cemal. *Between Two Worlds: The Construction of the Ottoman State*. Berkeley: University of California Press, 1996.
9. Kocka, Jurgen. "Asymmetrical Historical Comparison. The Case of the German Sonderweg," *History and Theory,* 38 (1999), p. 40-50.
10. Kramer, Lloyd S., and Sarah C. Maza. *A Companion to Western Historical Thought*. Malden, Mass: Blackwell Publishers, 2002.
11. O'Brien, Patrick. "Historiographical Traditions and Modern Imperatives for the Restoration of Global History." *Journal of Global History* 1, no. 1 (2006): p. 3–39.
12. Pratt, Mary Louise. "Criticism in the Contact Zone," in *Imperial Eyes: Travel Writing and Transculturation.* London: Routledge, 1992.
13. Sachsenmaier, Dominic. "Global History and Critiques of Western Perspectives." *Comparative Education* 42, no. 3 (2006): 451-70.
14. Subrahmanyam, Sanjay. "Connected Histories: Notes

towards a Reconfiguration of Early Modern Eurasia." *Modern Asian Studies* 31, no. 3 (1997): 735-62.
15. Tagizadeh, Seyyed Hasan. *The Stormy Life [Zendegiye Toofani].* Tehran: Ferdows,2000.
16. Tilly, Charles. *Big Structures, Large Processes, Huge Comparisons*. New York: Russell Sage Foundation, 1984.

17. Tuna, Mustafa. *Imperial Russia's Muslims: Islam, Empire, and European Modernity, 1788-1914*. Cambridge: Cambridge University Press, 2015.
18. Wimmer, Andreas, and Nina Glick Schiller. "Methodological Nationalism, the Social Sciences, and the Study of Migration: An Essay in Historical Epistemology." *The International Migration Review* 37, no. 3 (2003): 576-610.

19. Yagublu, Nasiman. *The Encyclopedia of Muhammad Amin Rasulzade. Ankara*: Azerbaycan Kültür Derneği, 2015.
20. Zia-Ebrahimi, Reza. "Better a warm hug than a cold bath: Nationalist memory and the failures of Iranian historiography", in *Iranian Studies,* vol. 49, no. 5 (2016): 837-854.